

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

30 oktyabr 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 42 (3754)


# Yeni mərhələ başlayır

**Prezident İlham Əliyevin bölgələrə növbəti səfərləri ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının davamlı xarakter daşıdığını və dövlət başçısının regionların dirçəlişini şəxsən nəzarətdə saxladığını bir daha göstərdi.**



Oktyabrın 28-də Prezident İlham Əliyev Sabirabad, İmişli, Cəbrayıl və Zəngilan rayonlarında bir sıra sənaye, sosial və infrastruktur layihələrinin açılışlarında iştirak edib, yeni müəssisələrin fəaliyyəti ilə tanış olub, sakinlərlə görüşüb və onlara mənzillərin açarlarını təqdim edib.

Sabirabad Sənaye Məhəlləsində fəaliyyətə başlayan "Humix", "Azera Toxumçuluq", "Taşobası" və "Fırtına Su Sistemləri" müəssisələri regionun iqtisadi potensialını gücləndirən yeni istehsal ocaqlarıdır. Burada aqrokimyəvi vasitələr, toxum, pambıq və su filtrlərinin istehsalı üzrə müəssisələrin işə düşməsi həm yerli bazarın təminatına, həm də ixracın artımına xidmət edir. Yüzlərlə yeni iş yerinin yaradılması dövlətin sahibkarlığa dəstəyinin, regionlarda sənayeləşmənin ardıcıl şəkildə genişləndirilməsinin göstəricisidir.

> *Azərbaycanın inkişaf strategiyasının mərkəzində insan amili dayanır*

Prezident İlham Əliyevin İmişliyə səfəri də aqrar-sənaye inteqrasiyasının yeni nümunəsi oldu. "Promalt" MMC-nin arpa emalı müəssisəsinin istifadəyə verilməsi ölkədə pivə istehsalı üçün xammal bazasının formalaşmasına, daxili bazarın dayanıqlı təminatına mühüm töhfə verir. 33 milyon manatdan artıq investisiya ilə qurulan bu müəssisə müasir texnologiyaların tətbiqi və istehsalın lokallaşdırılması baxımından region sənayesinin yeni səhifəsidir.

## "Böyük Qayıdış" Prezidentin şəxsi diqqətindədir

Prezidentin azad edilmiş ərazilərə – Cəbrayıl və Zəngilana səfəri isə həm iqtisadi, həm sosial, həm də mənəvi baxımdan xüsusi əhəmiyyət daşıyır. Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışı ilə burada 334 fərdi ev, məktəb, uşaq bağçası, bazar kompleksi və sosial infrastruktur istifadəyə verildi. Horovlu sakinlərinin doğma yurdlarına dönüşü ölkəmizin bərpa və quruculuq prosesinin real nəticəsidir.

Dövlət başçısı sakinlərlə görüşərək onlara yeni mənzillərin açarlarını təqdim edib. Bu, Prezidentin "Böyük Qayıdış" proqramına şəxsi diqqətinin bariz ifadəsidir.

Cəbrayılda eyni zamanda şəhər məscidinin, ikinci və üçüncü yaşayış komplekslərinin, "Şəfəq" avtomobil yolunun və "Şəms" və "Üfüq" Günəş Elektrik stansiyalarının təməllərinin qoyulması regionun həm mənəvi, həm də iqtisadi bərpasında növbəti mərhələnin başlanğıcıdır. Günəş stansiyalarının tikintisi Şərqi Zəngəzurun yaşıl enerji mərkəzinə çevrilməsinə, ekoloji və enerji təhlükəsizliyinin təmininə xidmət edir.

Zəngilan rayonunda Ağalı kəndinin ikinci mərhələsinin və Məmmədbəyli kəndinin açılışları da "ağıllı kənd" modelinin davamı kimi yeni yaşayış məkanlarının formalaşdığını göstərdi. Müasir infrastrukturla təchiz olunmuş evlər, sosial obyektlər, park və istirahət zonaları burada həyatın yenidən canlandığını sübut edir. Prezident İlham Əliyev Ağalı və Məmmədbəyli kəndlərinin sakinlərinə mənzillərin açarlarını təqdim edərək, onların doğma torpaqlarda firavan və təhlükəsiz həyat sürmələri üçün dövlətin bütün imkanlarını səfərbər etdiyini vurğulayıb.

Prezidentin bu səfərləri bir daha göstərdi ki, Azərbaycanın inkişaf strategiyasının mərkəzində insan amili dayanır. Yeni müəssisələrin istifadəyə verilməsi, kəndlərin bərpası, bərpa olunan enerji layihələrinin icrası və vətəndaşların öz yurdlarına dönüşü ölkəmizin gələcəyinin, rifahının və müstəqil iqtisadi gücünün təməlini möhkəmləndirir.

# Nazir gənclərin sırasından seçim edib

## Onlardan 14 nəfəri Vətən müharibəsi iştirakçısıdır





Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov oktyabrın 27-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 189 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 14 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir Vilayət Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

# Prezidentdən qardaşlıq mesajı

## Dövlət başçısı Türkiyə xalqını təbrik edib

Prezident İlham Əliyev Türkiyə Respublikasının milli bayramı – Respublika Günü münasibətilə həmkarı Rəcəb Tayyib Ərdoğanı və Türkiyə xalqını təbrik edib.

Dövlət başçısı məktubunda Türkiyənin beynəlxalq nüfuzundan, sülh və sabitliyin qorunmasında oynadığı roldan bəhs edib. Prezident "Bir millət, iki dövlət" prinsipi üzərində qurulan Azərbaycan–Türkiyə münasibətlərinin bu gün ən yüksək səviyyəyə çatdığını vurğulayıb. Şuşa Bəyannaməsi ilə strateji müttəfiqliyə çevrilən əlaqələrin regionda sülh və rifahın əsas dayaqlarından biri olduğu qeyd olunub.

# Dövlət başçıları razılığa gəliblər

## İki ölkə arasında təmaslar davam etdiriləcək

Oktyabrın 24-də Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib.

Danışıq zamanı dövlət başçıları oktyabrın 9-da Düşənbədə keçirilmiş görüşün nəticələrini müzakirə ediblər. Liderlər iqtisadi-ticari əlaqələrin inkişafı, enerji və nəqliyyat-logistika sahələrində birgə layihələrin həyata keçirilməsi barədə fikir mübadiləsi aparıblar. Həmçinin regional əməkdaşlığın bəzi aspektləri və beynəlxalq vəziyyətə toxunulub.

Prezidentlər gələcəkdə müxtəlif səviyyələrdə təmasların davam etdirilməsində razılığa gəliblər.

# Prezident naziri qəbul edib

## Görüşdə əməkdaşlıq məsələləri müzakirə edilib

Oktyabrın 22-də Prezident İlham Əliyev Estoniyanın xarici işlər naziri Marqus Tsahknanı qəbul edib.

Nazir söhbət zamanı Ermənistan-Azərbaycan münasibətlərində irəliləyişi yüksək qiymətləndirib. Prezident İlham Əliyev bu prosesdə ABŞ-ın rolunu vurğulayaraq, Naxçıvanla nəqliyyat əlaqələrinin bərpasının əhəmiyyətini qeyd edib.

Görüşdə həmçinin biznes əlaqələrinin genişlənməsi, Avropa İttifaqı ilə əməkdaşlığın inkişafı və COP29-un nəticələri müzakirə olunub.

# Fərman və sərəncamlar

*Prezident İlham Əliyevin oktyabrın 24-də imzaladığı Sərəncam ilə Sərdar Süleyman oğlu Səfərov Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi təyin edilib. Dövlət başçısının digər Sərəncamı ilə ona "general-mayor" ali hərbi rütbəsi verilib.*

*Prezident İlham Əliyev oktyabrın 27-də yeni səfirlər təyin edib. Dövlət başçısının sərəncamları ilə Fərid Yunis oğlu Talıbov Azərbaycanın Yaponiyada, Seymur Həbib oğlu Fətəliyev Azərbaycanın Meksikada, həmçinin Eldar Nadir oğlu Səlimov Azərbaycanın İraqda, Şahin Şakir oğlu Abdullayev Azərbaycanın İordaniya Haşimilər Krallığında, Mütəllim Sabir oğlu Mirzəyev Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.*


Kəlbəcərin mübariz keşikçiləri .............2
Burada gələcəyin zabitləri yetişir..........2
Ən uca zirvədə....................................3
Tarixə düşən soyğunlar.........................4

## Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək

### Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən 2025-ci il noyabrın 1-də Kürdəmir Rayon Polis Şöbəsinin inzibati binasında Kürdəmir, Ucar, Hacıqabul, Göyçay, Ağdaş, Ağsu rayonlarının və Şirvan şəhərinin sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 31.10.2025-ci il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

## Respublika Xəbərləri

### Büdcə gəlirləri artır

2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38 milyard 609 milyon manat məbləğində proqnozlaşdırılır. Növbəti il üçün dövlət büdcəsinin gəlir strukturunda qeyri-neft sektorunun payı əhəmiyyətli dərəcədə artır. Bu büdcənin neft amilindən asılılığının daha da azalmasına gətirib çıxaracaq. Belə ki, gəlirlərin 57,4 faizi, vergilərin isə 78,7 faizi qeyri-neft mənbələri hesabına formalaşacaq.

### Növbəti köç karvanları...

Oktyabrın 28-də Qırmızı Bazar qəsəbəsi 20 ailə olmaqla 71 nəfərə, Sos kəndi isə 10 ailə olmaqla 42 nəfərə qucaq açıb. Bununla, hər iki yaşayış məntəqəsinə artıq ikinci köç gerçəkləşib. Daha əvvəlki köçdə Qırmızı Bazar qəsəbəsində 10 ailə olmaqla 39 nəfər, Sos kəndində isə 10 ailə olmaqla 47 nəfərin məskunlaşması təmin edilib.

### Azərbaycan BMT konvensiyasında

Azərbaycan BMT-nin "Kibercinayətkarlığa qarşı" Konvensiyasını imzalayıb. Sənəd Vyetnamın Hanoy şəhərində keçirilən mərasimdə imzalanıb. Ölkəmiz ilk imzalayanlar sırasındadır. Konvensiya kibercinayətkarlıqla mübarizədə beynəlxalq əməkdaşlığı nəzərdə tutur.

### Peşə hazırlığı proqramı genişlənir

Gələn il 17 500 nəfər işsiz və işaxtaranın peşə hazırlığına cəlb olunması planlaşdırılır. Bu məqsədlə 26 milyon manat xərclənəcək. Qeyd edək ki, peşə təhsili və təqaüdlər üçün ayrılan vəsait 2025-ci illə müqayisədə artırılıb.

### Avtobusları izləyə biləcəyik

Bakıda sərnişinlər yeni mobil tətbiq vasitəsilə avtobusların gəliş vaxtını onlayn izləyə biləcəklər. Məlumata görə, AYNA MaaS (Mobility as a Service) mobil tətbiqi sayəsində istifadəçilər avtobusların gəliş vaxtını öyrənə biləcəklər. Bu yenilik ictimai nəqliyyatda şəffaflıq və rahatlığı artıraraq sərnişinlərin vaxtına qənaət etməyə imkan verəcək. Hazırda layihənin beta-versiyası test olunur. Sınaqlardan sonra tətbiq ictimaiyyətin ixtiyarına veriləcək.

### Laçında əmək yarmarkası keçirilib

Laçında Dövlət Məşğulluq Agentliyi tərəfindən əmək yarmarkası təşkil edilib. Tədbirdə 20 işəgötürən 121 vakansiya təqdim edib. İştirakçılara məşğulluq proqramları və müraciət qaydaları barədə məlumat verilib.

### Xocalıda mediatur

Xocalıda özünüməşğulluq proqramı çərçivəsində yaradılan təsərrüfatlara mediatur keçirilib. Məlumata görə, azad olunmuş ərazilərdə 6 minədək sakin məşğulluqla təmin olunub, 518 nəfər üçün kiçik təsərrüfatlar qurulub. Media nümayəndələri arıçılıq və heyvandarlıq təsərrüfatları ilə tanış olublar.

# Kəlbəcərin mübariz keşikçiləri

### Onlar sabitliyin və dirçəlişin keşiyini çəkirlər

**İndi Kəlbəcərdən baxanda Ələsgər sazının, sözünün sehrinə bələnmiş Göyçə gölü də bizə boylanır. Uzaqdan bir ovucluq su kimi görünən o mavi ümman sanki gülümsəyərək azad edilən torpaqların dirçəlişinə şahidlik edir. İllərlə səssizliyə bürünən dərələr, həsrətin, ayrılığın yükünü daşıyan, zirvəsi günəşə güzgü tutan dağlar yenidən doğmalarının isti nəfəsini duyur.**

Bir vaxtlar düşmən Kəlbəcəri də odlara qaladı, nəsillərin xeyrinə-şərinə şahidlik edən evləri yerlə-yeksan etdi, çox ocaqları söndürdü. Ancaq bu ulu yurd ürəyinə daş bağlayıb, dağı-daşı bağrına basıb bir təhər dözdü o ağrılara, acılara.

Bu böyük quruculuq, yurda qayıdış, əlbəttə, yalnız sabitliyin və təhlükəsizliyin hökm sürdüyü şəraitdə mümkündür. Və bu sabitliyi qoruyanlar bu yurdun mübariz keşikçiləridir. Kəlbəcərin soyuq səhərlərində, dumanlı axşamlarında, dağların sərt baxanda orada həm də torpağa bağlılığın, millətə sədaqətin, qorxusuzluğun obrazı görünür. İşğalçı qovulsa da, uzun müddət silah-sursatla, minalarla çirklənmiş bu ərazilərdə addımbaşı təhlükə, təhdid var idi. Onlar məhz qaynayır. Bütün bunlar bir vaxtlar xəyal idi, indi isə gerçəklikdir və polislər də Azərbaycanın bütün regionda yaratdığı bu gerçəkliyin keşiyində dayanıblar.

Kəlbəcər kimi küllərindən yenidən yaranan, daha doğrusu, yaradılan









Ancaq indi Kəlbəcər də azad edilən digər yurd yerlərimiz kimi yenidən nəfəs alır. Faciəli talelərə şahidlik etmiş, nizamı dağılmış yollar yenidən çəkilir, qovulanlar qayıdanda toz olmasın deyə küçələrinə su, ürəyinizə toxtahlıq səpilir beləcə.

Günbəgün daşına daş, kərpicinə kərpic əlavə olunan Kəlbəcərdə kül olmuş evlərdə bu gün bərpa edilən həyat, haradan baxsan, qaya kimi möhkəm iradəmizin, əyilməz ruhumuzun rəmzidir. Dağların arasında günəş kimi doğan bu qədim məskənimizdə tikilən hər bina, yanan hər işıq "biz buradayıq, biz qayıtmışıq, biz əbədiyyən burada qalacağıq!" deyə hayqırır sanki.

Uca dağların qoynunda xidmət aparan hər bir polisin fotosuna nəfəsində sabitlik də beləcə inşa edilir.

Ona görə Kəlbəcərin küçələrində post-patrul avtomobillərinin siren səsləri, sayrışan işıqları artıq qorxu yox, arxayınlıq gətirir. Bilirsən ki, bu səs təhlükədən xəbər vermir, təhlükəsizliyə işarə edir. Çünki Azərbaycan Polisi bu torpaqlara ali qanunun, hüquqi düzənin təmsilçisi, dirçəlişin simvolu kimi qayıdıb. Hər addımda, hər postda, hər baxışda bir məsuliyyət, bir fədakarlıq hiss olunur. Onlar təkcə asayişin deyil, həm də insanların ümidlərinin keşiyində dayandıqlarının fərqindədirlər.

bu təhlükələrə sinə gərdilər, bu təhdidlərə qarşı qaya kimi möhkəm dayandılar. Çünki bu, yalnız vəzifə borcu yox, həm də torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərin, sağlamlığını itirən qazilərin əmanətinə sahib çıxmaqdır. Bunu dərk edərək hər daşını, hər qarışını göz bəbəyi kimi qoruyan asayiş keşikçiləri Kəlbəcəri də ölkənin ümumi sabitlik sferasına uğurla inteqrasiya ediblər.

Bu gün azad edilən bütün ərazilərdə sabitlik, təhlükəsizlik hökm sürür. Böyük Qayıdışla evlərinə dönən uşaqlar yenidən həyətlərdə oynayır, eyvanlardan, pəncərələrdən həyətlərə işıqlar süzülür, həyat şəhərlərimizdə, kənd və qəsəbələrimizdə çox şey dəyişib, əlbəttə. Bəlkə bu torpaqlarda boya-başa çatanlar geri dönəndə uşaqlıq xatirələrinin doğulduğu yerləri tapa bilməyəcəklər. Amma əvəzində işıqlı, inamlı sabahın təməllərinin atıldığının şahidi olacaqlar. Və hər səhər günəş uca dağların arxasından doğanda, onun ilk şəfəqləri yenə vüqarlı dağların qoynunda xidmət edən mübariz keşikçilərin üzünə düşəcək və onlar da hər dəfə yenidən and içəcəklər: bu torpaqlar bir daha kimsənin tapdağı altında qalmayacaq!

*Rəşad Mehtiyev*

# Burada gələcəyin zabitləri yetişir

### Gənclər Polis Akademiyasına üz tutur

Daxili İşlər Nazirliyinin Polis Akademiyası bu gün ölkənin ən nüfuzlu ali təhsil ocaqlarından birinə çevrilib. Bunu 2025/2026-cı tədris ili üçün qəbul prosesi bir daha təsdiqlədi. Xüsusi təyinatlı bu ali məktəbdə qəbul planı üzrə nəzərdə tutulan bütün yerlər tam doldu.

Məlumat üçün qeyd edək ki, 2024/2025-ci tədris ilində qəbul üçün 2250 nəfər müraciət etdiyi halda, bu il bu rəqəm 2938-ə yüksəlib. Onlardan 550 nəfər hüquqşünaslıq, 25 nəfər isə informasiya təhlükəsizliyi ixtisası üzrə qəbul olunub. Ən yüksək nəticə hüquqşünaslıq ixtisasında 675,3, informasiya təhlükəsizliyi üzrə isə 675,7 bal olub. Minimum keçid balları da ötən illərlə müqayisədə yüksələrək, müvafiq olaraq 462,4 və 568 bal təşkil edib. Ümumilikdə 72 nəfər 600 baldan çox nəticə göstərib.

Şübhəsiz ki, bu uğurların arxasında gənclərin DİN sistemində təhsilə və xidmətə marağının artırılması istiqamətində görülən məqsədyönlü işlər dayanır. Respublikanın bütün ümumtəhsil müəssisələrini, o cümlədən ən ucqar kəndlərdə yerləşən məktəbləri əhatə edən təşviqat tədbirləri gənclərin daxili işlər orqanlarına marağını ildən-ilə artırır.

Akademiyadan bununla bağlı bildirilib ki, gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə cəlb olunması məqsədilə təşviqat işlərinə 2022-ci ilin may ayından başlanılıb. Bu istiqamətdə müvafiq tədbirlər planı təsdiqlənib və DİN rəhbərliyinin göstərişi ilə konkret tapşırıqlar verilib.

Tədbirlərə qədər hər il Polis Akademiyasına qəbul üzrə orta hesabla minə yaxın müraciət daxil olurdu. Məsələn, 2020-ci ildə 876, 2021-ci ildə 799, 2022-ci ildə isə 1024 nəfər müraciət etmişdi. 2022-ci ildən etibarən isə müraciətlərin sayında nəzərəçarpacaq artım qeydə alınıb ki, bu da təsdiqlənmiş tədbirlər planının və verilən göstərişlərin sistemli icrası ilə bağlıdır.

Təşviqat işləri çərçivəsində əməkdaşlar respublikanın müxtəlif rayonlarına ezam edilərək, ərazi polis orqanları və Polis Akademiyasının məzunları ilə birlikdə tam orta məktəblərdə və hazırlıq kurslarında görüşlər keçiriblər. Şagirdlərə və valideynlərə qəbul qaydaları, kursantların sosial təminatı, maddi şəraiti və mövcud imtiyazlar barədə ətraflı məlumat verilib. Gənclərin polis peşəsinə marağını artırmaq üçün "Açıq qapı" tədbirləri davam etdirilib, Akademiyanın gündəlik fəaliyyətini əks etdirən videoçarxlar televiziya kanallarında və sosial şəbəkələrdə mütəmadi yayımlanıb.

Təbliğat-təşviqat işlərində fəallıq göstərən Akademiya əməkdaşlarının əməyi də diqqətdən kənarda qalmayıb. Xidmətləri nəzərə alınan polis polkovniki Fərhad Əliyev, polis polkovnik-leytenantı Ruslan Cəfərov, polis polkovnik-leytenantı Eldəniz Kazımov, polis mayoru Asif Əhmədov, polis mayoru Natiq Eminov, polis kapitanı Nicat Quliyev, polis baş leytenantı Alparslan Məmmədli və polis leytenantı İranə Vahabova müvafiq qaydada mükafatlandırılıb.

Hazırda da təbliğat-təşviqat işləri ardıcıl aparılır. Ərazi polis orqanları ilə birgə, Polis Akademiyasında təhsil almaq arzusunda olan 9-10-cu sinif şagirdləri müəyyənləşdirilir, onlarla görüşlər keçirilir. Buraxılış balı yüksək olan, daxili işlər orqanlarında xidmətə qəbul şərtlərinə cavab verən gənclər üzrə xüsusi bazanın formalaşdırılması istiqamətində fəaliyyət davam etdirilir.

# Ən uca zirvədə

## Adı Vətənlə qoşa çəkilənləri unutmuruq

**Torpaqlarımızı azadlığına qovuşduran müharibənin adı tarixdə qalan qəhrəmanlarından biri də Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçusu çavuş Həsən Aydın oğlu Abdullayevdir.**

O, 1990-cı ilin oktyabr ayının 15-də Kəlbəcər rayonunun Zivel kəndində doğulub. Abdullayevlər ailəsi 1993-cü ilin aprel ayında Ermənistanın hərbi təcavüzü nəticəsində Kəlbəcər rayonundan məcburi köçkün düşüb. Məcburi köçkün olaraq İsmayıllı rayonunun Quşencə kəndində məskunlaşıblar. Sonrakı dövrdə ailə İsmayıllı rayonunda məcburi köçkünlər üçün salınmış Qarabağ qəsəbəsinə köçüb.

Birinci Qarabağ müharibəsi zamanı Həsənin bibisi oğlu Nadir Heydərov şəhidlik zirvəsinə ucalıb. Qəhrəmanımız Quşencə kəndində yerləşən şəhid Əhmədağa Babayev adına tam orta məktəbin məzunu olub. 2009-cu ilin aprel ayında Həsən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin Bakı ətrafındakı "N" saylı hərbi hissəsində xidmət keçib, zirehli texnikalar bölüyündə PDM-2 (piyadanın döyüş maşını) üzrə sürücü-mexanik vəzifəsi ona həvalə olunub. 2010-cu ilin oktyabr ayında hərbi xidmətdən tərxis edilib. Daxili Qoşunlarda xidmət etməyi özünə şərəf bilən Həsənin müraciəti komandanlıq tərəfindən müsbət cavablandırılıb. 2013-cü ilin iyun ayının 4-də Həsən Daxili Qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Gəncədəki "N" saylı hərbi hissədə xüsusi vasitələrin tətbiqi dəstəsinin xü-



*Həsən Abdullayev*

susi vasitələrin tətbiqi bölməsində atıcı, xüsusi təyinatlı dəstənin avtomobil yarımqrupunda sürücü, xüsusi həmlə qrupunda qumbaraatan köməkçisi və atıcı-sanitar vəzifələrində layiqincə xidmət edərək komandanlığın etimadını doğruldub. Nümunəvi xidmətinə görə komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb.

2020-ci ilin sentyabr ayının 27-də ordumuzun düşmən üzərinə əks-hücumu ilə başlayan Vətən müharibəsində Həsən ön cəbhəyə ilk göndərilən hərbi qulluqçuların arasında olub, doğma yurdu Kəlbəcər istiqamətində vuruşub. Bu, Həsənin həyatının ən başlıca missiyasının gerçəkləşdiyi vacib məqam idi. Xüsusi təyinatlı Murovdağın aşırımları və zirvələrində qısa, lakin şərəfli döyüş yolu keçib.

Vətən müharibəsi iştirakçısı polkovnik-leytenant Zaur Rəhimov: "Hərbçiyə aid bütün müsbət xüsusiyyətlər Həsəndə cəmlənmişdi. İntizamlı, yüksək döyüş qabiliyyətli və cəsur xüsusi təyinatlı idi. Xidmət zamanı Ağstafa rayonunda və Gəncə şəhərində ictimai təhlükəsizliyin qorunması üzrə xüsusi əməliyyatlara cəlb olunub. Daxili Qoşunların xüsusi təyinatlı dəstələri arasında yarışlarda iştirak edərək qalib yerlərə sahiblənib. Vətən müharibəsində Həsən qətiyyət və peşəkarlıq nümayiş etdirib. Mürəkkəb relyefə malik Murovdağ silsiləsinin ərazisində mövqelənmiş təcavüzkarın postlarına hücum edərkən Həsən qorxmaz döyüşçü kimi silahdaşlarını ruhlandırıb, avtomat silahı ilə onlarla işğalçının həyatına son qoyub.

Vətən müharibəsi qazisi, ehtiyatda olan baş çavuş Elnur Cəfərov, Gəncədəki "N" saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunda istehkamçı-radiotelefonçu, Vətən müharibəsi iştirakçısı çavuş Elçin Əhmədağalı Həsənin əziz xatirəsini ehtiramla yad edib, barəsində xoş xatirələrini bölüşdülər.

Sentyabrın 30-da günortadan sonra "Canavar sağ"dan Çiçəklidağ yüksəkliyinə doğru irəliləyərkən Həsənin yanına düşmənin minaatan mərmisi düşərək partlayıb, nəticədə bir neçə nahiyədən qəlpələrlə ağır yaralanaraq yerindəcə şəhid olub. Həmin anda şəhidin yanında Elçin, bir də Sabir adlı döyüşçü vardı. Oktyabrın 1-də şəhidin nəşi təxliyyə olunub.

Şəhid hərbi qulluqçumuz İsmayıllı rayonunun Quşencə kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 dekabr 2020-ci il, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla çavuş H.Abdullayev ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

*Yalçın Abbasov*

# Biz onları axtarırıq…

## İtkin düşmüş həmkarlarımızı doğmaları hələ də gözləyir

9-11 oktyabr tarixlərində paytaxtımızda keçirilən "İtkin düşmüş şəxslər probleminin həlli üçün səylərin birləşdirilməsi və əməkdaşlığın genişləndirilməsi" mövzusunda keçirilən beynəlxalq konfrans "İtkin düşmüş şəxslər üzrə Bakı Dialoqu" çərçivəsində təşkil olunmuşdu.

Tədbirə dünyanın müxtəlif ölkələrindən, o cümlədən beynəlxalq təşkilatlardan nümayəndələr, ekspertlər dəvət olunmuşdu. "Gülüstan" sarayında düzənlənən konfransın əsas məqsədi müharibələr, silahlı münaqişələr və humanitar böhranlar nəticəsində itkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması istiqamətində beynəlxalq əməkdaşlığı gücləndirmək, təcrübə mübadiləsini təşviq etmək və bu sahədə vahid mexanizmlərin formalaşdırılması idi.

Tədbirdə Azərbaycanın 1990-cı illərin əvvəllərində Ermənistanın hərbi təcavüzü nəticəsində 4 min nəfərə yaxın vətəndaşının itkin düşməsi kimi ağır bir humanitar fəlakətlə üzləşdiyi xüsusi vurğulanıb. İtkin düşənlərdən 3 min 202 nəfəri hərbçi, 766 nəfəri mülki şəxslərdir. Mülki şəxslərdən 69 nəfəri yetkinlik yaşına çatmamış uşaq, 283 nəfəri qadın, 334 nəfəri ahıl yaşlı şəxs olub.

İtkin düşənlərin taleyinə aydınlıq gətirilməsi üçün birinci Qarabağ müharibəsi zamanı şəhid olmuş və respublikanın 13 şəhər və rayonunun ərazisində yerləşən 21 qəbiristanlıqdakı naməlum şəhid məzarlarından 185 nəfərə aid meyit qalığı ekshumasiya edilib. Naməlum məzarlıqlar üzrə 74 itkin-şəhidin şəxsiyyəti eyniləşdirilib. Bu günədək ümumilikdə 613 şəxsə aid meyit qalıqları aşkar edilərək götürülüb. Meyit qalıqlarının məhkəmə molekulyar-genetik ekspertizasının nəticəsi olaraq, Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 149 nəfərin şəxsiyyəti eyniləşdirilərək ictimaiyyətə açıqlanıb. 2014-cü ildən etibarən ümumilikdə 3 min 600-dən artıq itkinin ailə üzvlərindən 11 min 236 bioloji nümunə toplanıb.

Bu məsələni Milli Məclisin sədri Sahibə Qafarova İsveçrənin Cenevrə şəhərində Parlamentlərarası İttifaqın 151-ci Assambleyasında keçirilən "Böhran zamanı humanitar normaların qorunması və humanitar fəaliyyətin dəstəklənməsi" mövzusunda müzakirələrdə də yenidən diqqət mərkəzinə gətirib. Yeri gəlmişkən, birinci Qarabağ müharibəsində torpaqlarımızın azadlığı uğrunda daxili işlər orqanlarının əməkdaşları və hərbi qulluqçuları canlarını fəda etdilər.

Döyüşən oğulların sırasından itkin düşənlər də oldu və bu günə kimi onlardan hələ də xəbər yoxdur.

**Nəsimi RPİ-nin əməkdaşı** polis kapitanı Əhmədzadə Şahin Əyyub oğlu 1992-ci il may ayının 8-də itkin düşüb.

**Qax RPŞ-nin əməkdaşı** polis baş leytenantı Məmmədov Əhməd Mustafa oğlu Şuşanın işğalı zamanı itkin düşüb.

**Zəngilan RPŞ-nin əməkdaşı** polis leytenantı Paşayev Sabir Əziz oğlu 1993-cü ilin oktyabrında Cəbrayılda itkin düşüb.

**Kəlbəcər RPŞ-nin əməkdaşı** polis baş serjantı Allahverdiyev Famil Heydər oğlu 1994-cü ilin yanvar ayının 25-də Kəlbəcərdə itkin düşüb.

**Ağdam RPŞ-nin əməkdaşı** polis baş serjantı Ağayev Həsənalı Kommunist oğlu 1993-cü ilin iyunun 13-də Ağdamda itkin düşüb.

**Ağdam RPŞ-nin əməkdaşı** polis serjantı Əliyev İman Qanboy oğlu 1993-cü ilin 22 iyununda Ağdamda itkin düşüb.

**Qax Rayon Mühafizə Bölməsinin əməkdaşı** polis serjantı Lətifov Rəcəb Lətif oğlu 1992-ci il mayın 8-də itkin düşüb.

**Xocalı Mühafizə Bölməsinin əməkdaşı** polis serjantı İlyasov Əhməd Məhəmməd oğlu Xocalının müdafiəsi zamanı itkin düşüb.

**Ağdam RPŞ-nin əməkdaşı** polis serjantı Mustafayev Həsən Rəhbər oğlu 1992-ci il 13 iyun tarixində Ağdamda itkin düşüb.

**Yasamal Rayon Mühafizə İdarəsinin əməkdaşı** polis kiçik serjantı Məmmədov Məmməd Adil oğlu 1993-cü il 12 iyun tarixində Ağdamda itkin düşüb.

**Nəsimi rayon Polis İdarəsinin Post-Patrul Xidməti Alayının əməkdaşı** polis baş serjantı Cəfərov Əfruz Mahmud oğlu 1992-ci ilin aprelində Şuşanın müdafiəsi uğrunda gedən döyüşlərdə itkin düşüb.

*Hafiz Təmirov*

# Polisə yazırlar...

## Məktublar rəğbətin ifadəsidir

Vətəndaş Mirsüleyman Qasımov DİN-in "Instagram" səhifəsinə təşəkkür mesajı ünvanlayıb: "18.10.25-ci il tarixində paytaxtın Səbail rayonu ərazisində özümə məxsus mobil telefonumu itirmişdim. Səbail Rayon Polis İdarəsinin 9-cu Polis Bölməsinin əməkdaşları tərəfindən telefonum tez bir zamanda tapılaraq mənə təhvil verildi. 9-cu Polis Bölməsinin rəhbərliyinə və şəxsi heyətinə dərin təşəkkürlərimi bildirirəm".

Vətəndaş Təhmin Kazımlı DİN-in sosial şəbəkə səhifəsinə yazdığı mesajında üzləşdiyi yol-nəqliyyat hadisəsi ilə bağlı müraciətinə operativ baxıldığına, obyektiv araşdırılaraq qısa müddətdə müsbət həll edildiyinə və ona dəymiş maddi ziyanın ödətdirilməsində göstərilən köməkliyə görə DİN rəhbərliyinə və Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

Astara rayon sakini Elvin Nəsirov öz məktubunda narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı qətiyyətlə və yüksək peşəkarlıqla həyata keçirilən mübarizə tədbirlərinə görə Astara Rayon Polis Şöbəsinin rəhbərliyinə təşəkkürünü bildirir.

# Müasir yanaşma, qarşılıqlı təcrübə

## Polis Akademiyasında növbəti tədbir keçirilib

Nəzəriyyə ilə təcrübənin vəhdəti prinsipinə əsaslanaraq kursantlar arasında elmi yaradıcılığın müxtəlif formalarının təbliğ edilməsi, nəzəri biliklərinin





möhkəmləndirilməsi və təcrübi vərdişlərinin daha da inkişaf etdirilməsini təmin etmək məqsədilə təcrübəli əməkdaşların Polis Akademiyasına dəvət olunması işi uğurla davam etdirilir. Bir neçə gün öncə Polis Akademiyasının növbəti qonağı Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri Fazil Həsənəliyev olub.

Qonaq əvvəlcə "İnformasiya təhlükəsizliyi" fakültəsinin ən müasir texniki avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat laboratoriyası ilə yaxından tanış olub.

Akademiyanın müəllim və kursant heyəti qarşısında "Cinayət məsuliyyətindən azad etmə" mövzusunda çıxış edən F.Həsənəliyev cinayət hüququnun xüsusi institutlarından biri olan cinayət məsuliyyətindən azad etmə halları, onların hüquqi əsasları, tətbiq mexanizmləri və məhkəmə-prokurorluq təcrübəsində bu institutun rolu haqqında geniş məlumat verib.

Tədbirin sonunda kursantların mövzu ilə bağlı sualları cavablandırılıb və elmi diskussiya aparılıb.

# Təbliğat, təşviqat davam edir

## Yaradılan şərait uğurlu yolun başlanğıcıdır

Bu günlərdə Səbail Rayon Polis İdarəsində gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq edilməsi ilə bağlı görüş təşkil edilib.

Gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə və xidmətə təşviq edilməsinə dair görüşlərin paytaxtla yanaşı, bütün ölkəni əhatə etdiyini deyən idarə rəisi polis polkovniki Hikmət Qasımov bu sahədə əldə olunan uğurlu nəticələrdən danışıb. Ölkəmizdə ali hüquq təhsilli kadrların hazırlanmasında Polis Akademiyasının rolunu xüsusi vurğulayan natiq, sabitliyin, asayişin etibarlı təminində, insan hüquq və azadlıqlarının qorunmasında bu ali təhsil ocağının yetirmələrinin yorulmaz fəaliyyətini qeyd edib. Görüşdə iştirak edən DİN Polis Akademiyasının nümayəndələri yuxarı sinif şagirdlərinə, eləcə də onların valideynlərinə Polis Akademiyasının tarixi, keçirilən təlim-tədris prosesi, kursantın təhsil aldığı müddət ərzində dövlət hesabına qidalanması, geyimlə, yataqxana ilə təmini, tədris resursları, istifadə olunan müasir təhsil texnologiyaları, eləcə də daxili işlər orqanlarında xidmətin üstünlüyü barədə məlumat veriblər. Akademiyada yaradılan müasir şərait, tədris korpusları, zəngin kitabxanalar, laboratoriyalar, yataqxanalar, idman və atıcılıq meydançalarından istifadə etmək imkanları, burada kursantların asudə vaxtının dəyərləndirilməsi məqsədilə yaradılan unikal şərait də iştirakçıların diqqətinə çatdırılıb.

Qeyd olunub ki, Akademiyada hüquqşünaslıq ixtisası ilə yanaşı, informasiya təhlükəsizliyi ixtisası üzrə də kursant qəbulunun həyata keçirilməsi bu təhsil ocağında yaradılmış şəraitin müasir standartlara cavab verməsinin bariz nümunəsidir.

Sonra qocaman təhsil müəssisəsinə qəbul qaydaları barədə şagirdləri maraqlandıran suallar cavablandırılıb və Polis Akademiyasının tanıtım videoçarxı təqdim olunub.

# Polis əməliyyat keçirdi

## 8 kiloqram marixuana aşkarlandı

Astara Rayon Polis Şöbəsinin əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı növbəti əməliyyat keçiriblər. Lənkəran regional qrupumuzdan verilən məlumata görə, narkokuryerlikdə şübhəli bilinən əvvəllər məhkum olunmuş 28 yaşlı Tapdıq Zeynalov rayonun Sım kəndi ərazisində saxlanılıb. Həmin şəxsin olduğu avtomobildən qaçaqmalçılıq yolu ilə xaricdə yaşayan narkotacirdən əldə etdiyi 8 kiloqram marixuana aşkarlanaraq götürülüb. T.Zeynalovun həmin narkotik vasitəni maddi qazanc qarşılığında paytaxt ərazisində deyiləcək ünvana çatdırmaq barədə sövdələşdiyi müəyyən edilib. Faktla bağlı cinayət işi başlanılıb, saxlanılan şəxs barəsində həbs qətimkan tədbiri seçilib.

# Qəhrəmanlıq da yaşayır, qəhrəmanlar da...

## Vətən müharibəsinin xronologiyasından

*(Əvvəli ötən sayımızda)*

Qələbəmizdən, torpaqlarımızın işğaldan azad olunmasından, daha doğrusu 2020-ci ilin sentyabrından beş il ötsə də yaddaşımızda, ruhumuzda özünə əbədi yer eləyən o hiss hələ də bizi tərk etməyib. O hissə qisas adı da verə bilərik, yurda dönüş istəyi də, bir qərinəyə yaxın illərin qələbə ilə sonlanmış məntiqi sonluğu da demək olar.

Bu gün işğaldan azad olunmuş yurdlara əbədi bir köç başlayıb. Bu köç təhlükəsiz, top-tüfəng səsi gəlməyən , Azərbaycan əsgərinin, Azərbaycan Polisinin gecə-gündüz keşik çəkdiyi torpaqlarda gələcək xoş günlərin, uğurların təməlini qoymaq üçün 30 ildən sonra yola çıxıb. Bu köçlərin, bu qayıdışın bir qarantı var: Azərbaycan dövləti, Azərbaycan xalqı və Dəmir yumruq.

Vətən müharibəsində Qələbəmizə aparan hər günün, hər ayın öz yeri var. Oktyabr ayı da müharibədə mühüm hərbi nailiyyətlərlə yadda qalıb.

**Oktyabrın 18-də** Azərbaycan Ordusu tərəfindən dünən gün ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd S-300 zenit-raket kompleksinin raket tuşlama stansiyası, 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 "Qrad" YARS, 2 ədəd "Smerç", 1 ədəd D-20 haubitsa-topu və 1 ədəd KS-19 zenit topları, 6 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır. Saat 12 radələrində Azərbaycan Ordusunun Füzuli istiqamətində uğurlu döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissəsi bölmələrimiz tərəfindən ələ keçirilmişdir. Saat 12:30 radələrində cəbhənin Cəbrayıl istiqamətində Azərbaycan Ordusunun mövqelərinə aviazərbələr endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin növbəti Su-25 hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilmişdir. Saat 14 radələrində Ağdam rayonu ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulmuşdur. Saat 13:00 radələrində Horadiz istiqamətində uçuşlar keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilmişdir. Ermənistan silahlı qüvvələri tərəfindən Xızı rayonuna raket atılsa da, raket Azərbaycan Hava Hücumundan Müdafiə Qoşunları tərəfindən zərərsizləşdirilmişdir. Azərbaycan Ordusu işğaldan azad edilmiş Cəbrayıl rayonunda yerləşən Xudafərin körpülərinə Azərbaycan bayrağı sancmışdır. Azərbaycan Müdafiə Nazirliyinin verdiyi məlumata əsasən, ağır döyüşlərdə xeyli canlı qüvvə və döyüş texnikası itirən Ermənistan Silahlı Qüvvələrinin 527-ci motoatıcı alayının atıcı taboru praktiki olaraq iflic vəziyyətinə düşmüşdür.



**Oktyabın 19-da** Prezident İlham Əliyev özünün "Twitter" səhifəsində Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Hasanlı, Alıkeyxalı, Qumlaq, Hacılı, Göyərçin Veysəlli, Niyazqulular, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndlərinin işğaldan tam azad edildiyini açıqlamışdır. Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 1 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları və 11 ədəd avtomobil texnikası məhv edilmiş və sıradan çıxarılmışdır.Ermənistan Silahlı Qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında döyüş tapşırığı icra edən taborun komandiri şəxsi heyətlə birlikdə döyüş mövqelərini ataraq geri çəkilmişdir. Alayın müdafiə sahəsində yerləşən 63-cü tank taborunun qərargah rəisi məhv edilmiş, 1-ci taborun komandiri və onun müavini Gevorq Makaryan isə yaralanmışdır. Həmçinin 5-ci dağatıcı alayın müdafiə sahəsindəki taborun şəxsi heyətinin bir qismi məhv edilmiş, digərləri isə döyüş mövqelərini özbaşına tərk edərək qaçmışdır. Ölənlər arasında tabor komandirinin müavini mayor Hayk Stepanyan da var.

*(Ardı gələn sayımızda)*

# Narkomaniyaya "yox" dedilər

## Maarifləndirici tədbir keçirilib

Bakı şəhəri Xətai Rayon Polis İdarəsinin təşkilatçılığı ilə Xətai rayonu 59 saylı tam orta məktəbdə “Narkomaniyaya yox deyək” və “DİN-in Polis Akademiyasına qəbul” mövzusunda maarifləndirici tədbir keçirilib.



Tədbirdə çıxış edən Xətai RPİ-nin rəisi polis polkovniki Vaqif Müslümov narkotik vasitələrin insan sağlamlığına və cəmiyyətə vurduğu fəsadlardan danışaraq, gəncləri bu bəladan uzaq olmağa çağırıb. O, həmçinin gənclərin gələcəyini təhlükəyə atan bu qlobal bəlanın qarşısının alınması üçün polisin keçirdiyi tədbirlərin əhəmiyyətindən, ictimai dəstəyin zəruriliyindən danışıb. Tədbir çərçivəsində Vaqif Müslümov Daxili İşlər Nazirliyinin Polis Akademiyasında təhsil almağın üstünlüklərindən və bu ali təhsil müəssisəsində yaradılan imkanlardan da bəhs edib. RPİ rəisinin şəxsi heyətlə iş üzrə köməkçisi polis polkovnik-leytenantı İdris Məhərrəmov isə Polis Akademiyasına qəbul qaydaları barədə ətraflı məlumat təqdim edib.

Digər çıxış edənlər də gənclər arasında narkotiklərlə mübarizənin vacibliyindən danışaraq sağlam həyat tərzinin önəminə diqqət çəkiblər, şagirdləri yalnız təhsilə maraq göstərməyi tövsiyə ediblər.

Tədbir şagirdlərin suallarının cavablandırılması ilə yekunlaşıb.

# Tarixə düşən soyğunlar

## Ağılasığmaz planlar bu gün də heyrət doğurur

**Cinayət tarixində elə soyğunlar olub ki, onların planlanması və icrası hər kəsi mat qoyub. Bu hadisələrin vurduğu maddi ziyanın miqdarı sonradan bəlli olsa da, onlar həm də hüquq-mühafizə orqanlarının iş metodlarında dəyişiklərə səbəb olub. Aşağıda tarixdə iz qoymuş bir neçə belə hadisəni təqdim edirik.**

### 1.Antverpen almaz soyğunu (2003-cü il)

Belçikanın Antverpen şəhərində “Briliant Mərkəzində” baş verən bu soyğun “əsrin soyğunu” adlandırılır. Leonardo Notarbartolo rəhbərliyindəki “Turin Məktəbi” adlı beş nəfərlik qrup, yüksək texnologiyalı təhlükəsizlik sistemlərini aşaraq 100 milyon dollardan çox dəyərində almaz, qızıl və digər qiymətli əşyaları oğurlayıb. Soyğunçular təhlükəsizlik kameralarını keçmək üçün casus qələmlərdən, sensorları deaktiv etmək üçün saç spreylərindən istifadə ediblər.

Nəticədə 189 təhlükəsiz depozit qutusu boşaldılıb. Notarbartolo həbs edilsə də oğurlanan əşyaların əksəriyyəti tapılmayıb.

### 2. Hatton Garden soyğunu (2015-ci il)

Londonda yerləşən Hatton Garden zinət əşyaları bölgəsində baş verən bu soyğun yaşlı cinayətkarların iştirakı ilə diqqət çəkib. 76 yaşlı Brian Reader rəhbərliyindəki qrup, üç illik planlamadan sonra yüksək təhlükəsizlik tədbirlərini aşaraq, 73 təhlükəsiz depozit qutusu boşaldıb və 300 milyon dollar dəyərində qiymətli əşyaları oğurlayıb. Lakin video kameraların tam deaktiv edilməməsi və digər izlər nəticəsində polis qısa müddətdə cinayətkarları tapıb və həbs edib.

### 3. Meksika Antropologiya Muzeyi soyğunu (1985-ci il)

Meksika şəhərində yerləşən Milli Antropologiya Muzeyində iki tələbə 124 ədəd qiymətli qədimi artefaktları oğurlayıb. Soyğun Milad bayramı gecəsi baş verib və təhlükəsizlik işçilərinin laqeydliyi nəticəsində mümkün olub. Oğurlanan əşyaların əksəriyyəti illər sonra tapılsa da, hadisə Meksika muzeylərinin təhlükəsizlik tədbirlərinin zəifliyini üzə çıxarıb.

### 4. 300 milyon yen soyğunu (1968-ci il)

Yaponiyada baş verən bu hadisə hələ də açılmamış ən böyük bank soyğunlarından biridir. Polis formasında olan bir şəxs bank işçilərini avtomobildən çıxararaq 294 milyon yen (o dövrün məzənnəsi ilə 1 milyon dollar) oğurlayıb. Cinayətkar, avtomobilin partlayıcı ilə minalandığını iddia edərək işçiləri uzaqlaşdırıb və avtomobili aparıb. Bu hadisə, Yaponiyada hüquq-mühafizə orqanlarının iş metodlarında dəyişiklərə səbəb olub.

### 5. Millennium Dome almaz soyğunu (2000-ci il)

Londonda yerləşən “Millennium Dome” sərgi mərkəzində 203 karatlıq “Millennium Star” almazını oğurlamaq məqsədilə planlaşdırılan bu soyğun polis tərəfindən əvvəlcədən xəbər alındığı üçün uğursuz olub. Cinayətkarlar ekskavator ilə binaya daxil olmağı və sürətli qayıqla qaçmağı planlaşdırıblar.

Lakin polis tərəfindən yerləşdirilən saxta almazlar və gizli müşahidə nəticəsində cinayətkarlar hadisə yerində yaxalanıblar.

### 6. Qızıl qatar soyğunu (1963-cü il)

İngiltərədə baş verən bu hadisədə bir dəstə soyğunçu poçt qatarını tuneldə dayandıraraq təxminən 2.6 milyon funt-sterlinq dəyərində pul və qızıl oğurlayıb. Onlar əvvəlcədən plan qurub, təhlükəsizlik sistemlərini və polis nəzarətini ustalıqla keçiblər.

Hətta soyğun zamanı şifrə ilə qatarın sürətini azaltmaq da planın bir hissəsi idi. Lakin polis sonunda soyğunçuları ələ keçirib.

### 7. Mona Liza tablosunun oğurlanması (1911-ci il)

Dünyanın ən məşhur rəsm əsəri sayılan Leonardo da Vinçinin “Mona Liza”sı 1911-ci ildə Parisdə Luvr muzeyindən oğurlanıb. Soyğunçu Vincenzo Peruggia işçi paltarı geyinərək əsəri muzeydən çıxarmağa müvəffəq olub. O, tablonu iki il evində saxlayıb və sonra İtaliyaya qaytarmaq məqsədilə geri verib. Bu hiyləgər plan və əsərin itməsi Parisdə böyük səs-küy yaradıb.

Bu hadisələr göstərir ki, cinayətkarlar bəzən yüksək səviyyəli planlama və texnologiyadan istifadə edərək, ağıla sığmayan soyğunlar həyata keçirə bilirlər. Lakin hüquq-mühafizə orqanlarının peşəkarlığı və texnoloji imkanları sayəsində bu cinayətlərin əksəriyyəti açılır və cinayətkarlar ədalət qarşısında cavab verirlər.

*Aytən Tahirova*
*polis kapitanı*

# Məhkəmə nitqi necə olmalıdır?

## Mütəxəssislər bu nitq növünə maraqlı yanaşma sərgiləyiblər

*(Əvvəli ötən sayımızda)*

Məhkəmədə nitqin forması ətraflı düşünülür və əvvəlcədən hazırlanır, lakin bütünlüklə o, natiqin xarici şəraitini nəzərə almaqla nitqi düzəltmə imkanı olan zaman onun söylənilməsi vaxtı tərtib edilir. Nitqin məzmunu və forması üzərində işləmək üçün ona yaradıcılıqla yanaşmaq lazımdır, lakin bu heç də həmişə təcrübədə istifadə olunmur.

Çexov məhkəmədə natiqlik məharəti formasının rolu haqqında yazmışdır: “Birincisi, şübhəsiz faktdır ki, onu vicdanlı, təcrübəli insan izah edir və bu daha da aydın olur. İkincisi, istedad təbii gücdür, bu daşları da quma çevirə bilən tufandır…”, “tələffüz edilən sözdən, formasına görə deyilən cümlədən asılı olaraq eyni sözün min mənası və incəlikləri var”.

Hər bir ictimai nitq kimi məhkəmə nitqinin söylənilməsi zamanı da başlanğıcın böyük rolu var və o, orjinal, aydın və fərdi olmalıdır. Nitqi söyləməyə tələsmək lazım deyil! Söz verilən zaman ayağa qalxmaq və biraz susmaq lazımdır. Başlanğıc fasiləsində auditoriya natiqlə tanış olduğu və onun haqqında öz təəssüratını yaratdığı üçün rolu böyükdür. Eyni zamanda başlanğıc fasiləsi zamanı dinləyici ilə müşahidə əlaqəsi yaradılır. Və ən əsası başlanğıc fasiləsi natiqə tribunaya öyrəşmək və həyəcana qalib gəlməyə kömək edir. Hər natiq özündə qərarsızlığı, əsəbiliyi boğmalıdır. A.F. Koni bu barədə yazmışdır: “Həyəcanlılığın ölçüsü sərf olunmuş əmək hazırlığına və ya daha doğrusu hazırlıq nəticəsinə tərs proporsionaldır”.

Lakin “natiqlik həyəcanı” “yaradıcılıq həyəcanlılığı” ilə qarışdırmaq olmaz. Çünki cammaatla görüşə gələn natiqə bu cür həyəcan lazımdır. Belə həyəcan natiqi stimullaşdırır, həvəsləndirir. Başlanğıc fasilə zamanı təcrübəli natiq auditoriyanın əhval-ruhiyyəsini, onun özünə qarşı, nitqin məzmununa qarşı münasibətini başa düşür, düzgün tonu müəyyən edir və dinləyicilər ilə əməkdaşlıq şəraitini yaradır. Təbii ton əldə etmək üçün nitqini susaraq, sakit, az sözlə istifadə edərək başlayır. Məhkəmə nitqi həmişə “Möhtərəm hakim” sözü ilə başlanır. Onu sadə, yavaş templə və nisbətən asta başlamaq lazımdır.

*(Ardı gələn sayımızda)*

*Aynur Səfərli*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR:
HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik